UOT 78
https://doi.org/10.59849/2311-8482.2024.2.145

KÖNÜL ŞÜKÜROVA*

# XX ƏSR MAHNI İRSİNDƏ KLASSİK POEZİYA, VAQİF VƏ CAHANGİROVUN DURNALARI XVIII ƏSRDƏN GÜNÜMÜZƏDƏK

*Bu araşdırmada milli mahnı xəzinəmizin ən dəyərli nümunələrindən hesab olunan "Durnalar" mahnısının yaranma və ifa tarixinə dair məlumatlar və faktlar yer almişdir. Bir mahninin timsalında onun müəllifləri - XVIII əsrdən başlanğıcını götürən ədəbi qolun realizm cərəyanının banisi və poeziyamızın klassiklərindən hesab edilən M.P.Vaqiflə, peşəkar bəstəkarlıq məktəbinin parlaq siması C.Cahangirovun unikal sənət əsəri vasitəsilə müxtəlif əsrlərdə yaşamış sənətkarların həm özləri, həm də dövrləri arasındakı bədii körpü göz önündə canlanır. Onların ortaq əsərində, sözün və musiqinin vəhdətindən doğan fəlsəfə, energetika, ahəng təhlil olunur. Bu nəğmənin XX əsr mahnı janrımızda forması, məzmunu, musiqi dili, mahnılar silsiləsindəki yeri ilk dəfə təhlil edilir. Həmçinin bu nəğmənin ifaçılıq sənətinin inkişafındakı mübahisəsiz xidməti, nəğmənin xronikasına daxil olmuş əsas ifaların retrospektivi ardıcıl şəkildə təqdim edilir. Bu araşdırma ilə musiqi maarifçiyi mövzusunun estetik, elmi və kütləvi aspektlərinin əhəmiyyəti bir daha üzə çıxır. Mahnı irsimizin araşdırılması, təbliğilə gələcək nəslin maariflənməsinə tövhə vermiş oluruq.*

***Açar sözlər:****Molla Pənah Vaqif, C.Cahangirov, "Durnalar", aşıq poeziyası, mahnı janrı.*

## Giriş

XX əsrin əvvəllərindən etibarən təməli Ü.Hacıbəyli tərəfindən yaradılmış bəstəkarlıq məktəbinin bir-birindən fərqli, istedadlı, güclü nümayəndələri sırasındaöz imzası ilə professional musiqimizdə fərqli cığır açmış, məhz səs fenomeni ilə çox spesifik işləyən C.Cahangirov da var idi.

Cahangir Cahangirov Azərbaycan mahnı janrının samballı hissəsini yaradaraq, tamamilə yeni, fərqli, nə özündən əvvəl, nə də sonra təkrarı olmayan çalarlar, rənglər, ahəng, üslub, musiqi dili gətirən, şərq musiqisinin ən dərin qatlarını, rənglərini açan, ən əsası isə mahnı janrındakı mürəkkəb əsərləri ilə ciddi və istedadlı ifaçı cərgəsi yaradan 1 bəstəkar olub. Onun qələmindən çıxan "Durnalar" ilə həm Cahangirov musiqisinin özünəməxsus cəhətlərinə, həm də mahnı janrımızın inkişafındakı müstəsna və dönüş məqamlarına nəzər salmaq istərdim.

Əvvəla bu nəğmə C. Cahangirovun ənənəvi seçimi, klassik poeziyamıza növbəti müraciətidir. Bəllidir ki, bəstəkarın musiqi irsi ədəbiyyatımızın ən güclü mütəffəkkirlərinin misralarıyla yoğrulub. Onun Nizami, Füzuli, Nəsimi, Sabir, Cavid poeziyasına xüsusi münasibəti vardı. Bu, xüsusilə onun yaratdığı ciddi, irihəcmli əsərlərində öz əksini tapır. Kantata, oratoriya, romans-qəzəl və nəhayət mahnılarında bəstəkar ötən əsrlərin söz ustadlarına müraciət etmişdir. Bununla da həm akademik, həm də populyar musiqiyə dərin, fəlsəfi düşüncə, sambal və fərqli məzmun gətirmişdir.

Haqqında danışdığımız mahnı üçün bəstəkar ədəbiyyatımızın realizm cərəyanının banisi Molla Pənah Vaqif misralarından ilhamlanıb. [12]

## Əsas təhlil

Əvvəla ondan başlayaq ki, milli poeziyamızda «Durnalar» ayrılıq mövzulu, həsrət ovqatlı, kövrək ruhlu əsərlərin əksəriyyətinin əsas obrazı olub. Və bu motiv klassik poeziyamızda realizm cərəyanı başlandığı dövrdən, yəni 18-ci əsrdən yazılı ədəbiyyata gəldi. Özü də milli dilimizin təmizliyinə, xəlqiliyinə, realistliyinə hədəflənən uğurlu bir mərhələnin yaradıcıları gətirdi o obrazı. O sırada Vaqif poeziyası elə bir əhəmiyyətli yerdə durur ki, ən böyük tədqiqatçılar da ədəbiyyatımızın yazılı və şifahi ənənələrinin inkişafında Vaqif fiqurunu əvəzsiz hesab edirlər. [7]

Firudin bəy Köcərli və davamçıları Vaqifi milli poeziyamızda heca vəzninin, saf ana dilimizin, aşıq poeziyasının, həmçinin ən rəngli, real, canlı obrazların yaradıcısı kimi şərh edirdilər. [3] Həmid Araslı qeyd edirdi ki, Vaqif yaradıcılığı ilə Azərbaycan şeiri tarixində yeni bir dövr başladı.Vaqif

yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular gətirdi. Nizami, Füzuli, Nəsimidən gələn obrazlar təmiz xalq dilində, yeni janrlarda, qoşma, gəraylı, təcnislərdə yeni təsvirlərini, bədii həllini tapdı. Azərbaycan qadınının gözəlliyi Vaqifə qədər belə təravətli, al-əlvan verilməmişdi. Vaqif söz sərrafı idi, o bənzətmələrdən, epitetlərdən elə məharətlə istifadə edirdi ki, real mənzərəcanlana bilirdi. Boyu sürahı, bədəni büllur, qaşları kaman, gözləri ala, gərdanı mina, zülfü pərişan və s. Bütün bunlar aşiq poeziyasına onun gətirdiyi standartlar idi. Özü də təmiz, saf azərbaycan dilindən qidalanaraq cana gəlirdi. Təsadüfi deyil ki, onu yazılı ədəbiyyatımızda heca vəzninin banisi, xalq həyatının nəqlçisi, aşiqanə təsvirlər gətirən romantik, ədəbi dilimizin bünövrəsi və nəhayət özündən sonrakı bütün aşıq poeziyasının sələfi hesab edirlər. H. Araslı daha bir yazısında qeyd edirdi ki, XIX və XX əsr aşıqlarının çoxu Vaqifin mövzularını təkrar etmiş, onun kimi qoşmalar yaratmağa çalışmış, onun qafiyələrini, rədiflərini və bədii ifadələrini dönə-dönə işlətmişlər.[5]

Ən əsası ədəbi janrların bir çoxu Vaqif irsindən başlanğıcını götürür. Onların arasında deyişmələr də vardır. Şairin dostu, həmyerlisi və müasiri Molla Vəli Vidadi ilə deyişmələri günümüzə çatmış ən gözəl nümunələrdəndir.[11] Burada “Durnalar” qoşmasının yeri xüsusidir. Təsadüfi deyil ki, “Durnalar” rədifli qoşmaları bir-birinə göndərən dostlar da elə yazılı ədəbiyyatda bu mövzunun əsasını qoydular. Düzdür, həmin əsrin sonunda realist poeziyanın davamçısı Qasım bəy Zakir də Vidadi «Durnalar»ına nəzirə yaratdı. Ama Vaqifin durnaları bu üç müəllif sırasında bədii həlli ilə öndə dura bildi.

**Molla Vəli Vidadi**

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimana, durnalar!
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkana, durnalar?!

Qasım bəy Zakir

Bir saat havada qanad saxlayın,
Rəhm edin didəmdə yaşa, durnalar!
Qatarlaşıb hansı yerdən gəlirsiz,
Qaqqıldaşa-qaqqıldaşa, durnalar?!

Molla Pənah Vaqif

Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz?
Bir xəbər versəniz, bizə, durnalar!

F.Köçərli bu üç müəllifin qoşmasını müqayisə edərkən yazırdı: “Hər bir şairin kəlamının məxsusi bir şivəsi vardır. Hər bir şair də öz qəlbinin və təbinin iqtizasınca göy üzündə qatar ilə uçan durnalara üz tutub, hali-dilini ərz qılır. Hər bir şairin kəlamında özgə bir lətafət və başqa bir hiss və məlahət var ki, əhli-dil və ərbabi-zövq onları oxuduqda dərk eləyir.”[4] “Rəhbər” jurnalı, 1906-cı il.

Yeri gəlmişkən, “Vaqif və Vidadi dostluğu” adlı həmin yazının əvvəlində Köçərli qeyd edir ki, bu qoşmalar uzun zaman üzdə - gözdə olmamış və onu şəxsən özü üzə çıxararaq “Rəhbər” jurnalının 3-cü sayında təqdim etmişdir. Köçərli bu əsərlərin nə Adolf Berjenin Leypsiqdə çap olunan məcmuəsinə, nə də Yusif Qarabağinin kitabçasına daxil olmadığını və nüdrətən tapıldığını söyləmişdir. [4] Belə məlum olur ki, sırf bu əsərin üzə çıxmasında böyük mütəfəkkir və alim F.Köçərlinin xidməti əvəzsizdir.

Məlumdur ki, Vaqif və Vidadi deyişmələri Qarabağ və Qazax mahallarında yaşayan iki həmyerli və dost arasında gedib, həm də bu, Vaqifin qürbətdəki dövrünə, yəni Şuşada yaşadığı dövrünə təsadüf edir. Nəzərə alsaq ki, əslən Qazaxlı olan şair 42 yaşından sonra Qarabağ xanının vəziri kimi Şuşada yaşamalı olub, onun vətən həsrətli misralarının da yaranma coğrafiyasını və zamanını təxmin etmək olar. [10]

O ki qaldı Vaqifin bu şeirdəki kövrək hisslərinə, sözsüz ki, burada böyük həsrət, ayrılıq, yarınasevgilisinə, onların timsalında vətəninə qovuşmaq arzuları öz əksini tapır. [6] Durna motivi Vaqifə

qədər də var idi. Xüsusilə aşıq dastanlarında, yəni folklorumuzda həsrət, ayrılıq, xiffət motivi kimi istifadə edilmişdir. Aşıq poetik janrı olan qoşma üzərində durna motivinin növbəti parlaq təzahürü də görünür təsadüf deyildi. Əslində durna motivinin saz ilə eyniləşdirilməsi də izlənə bilər bu misralarda. Professor Aydın Əzimov bu motivin xalq mahnılarımız içərisində məşhur olan "3 telli durna" mahnısında keçdiyini və 3 telli durna obrazı ilə əslində saza eyham edildiyini vurğulayır. [19] Görünür bu fikirlərdə həqiqət payı var. Vaqifin "Durnalar"ında da rəmzlər - həsrət, xiffət obrazı ilə saz obrazı birləşir.

Durnaların göy üzündəki sərbəst qatarını həsrətlə izləyərkən özünü quş kimi qəfəsdə hiss edən şairin naləsi də vardır bu əsərdə. Burada Azad ruhlu, şair təbiətli bir insanın məcburən saray məmuruna çevrilərək ruhundan qopması, azadlıq arzuları ilə baş-başa qalan və artıq heç vaxt sadə həyata qayıda bilməyəcəyini anlayan çox incə bir qəlbin fəryadı var sanki. Şeirin zahiri estetikasının alt qatında həqiqətən hüznlü bir energetika vardır ki, bunu da C.Cahangirov son dərəcə gözəl duymuş və mükəmməl verə bilmişdir.

Görünür bu da təsadüfi deyil, çünki Cahangirov Ü.Hacıbəylidən sonra musiqi ilə klassik şərq poeziyasının mükəmməl vəhdətinə nail olan 2-ci bəstəkar oldu. O, Hacıbəyli məktəbinin davamçıları içərisində Füzuli, Nəsimi, Nizami poeziyasını orijinaldan oxuyan, gözəl anlayan, şərq dillərinə, ərəb və fars dillərinə vaqif olan ən güclü klassiklərimizdəndir. Onun şair dostları (Rəfiq Zəka) ilə milli poeziyamızın şah əsərlərinin maraqlı müzakirəsinin, Füzuli, Nəsimi irsinin şərqşünas alimlərlə təhlilinin şahidi olan ziyalılar, Cahangirov haqda xatirələrində bunu dəfələrlə vurğulayardılar. Şair Zeynal Cabbarzadə isə C.Cahangirov haqda söyləyərdi: "Cahangirin mənə xoş gələn məziyyətlərindən biri də onun doğma Azərbaycan şeirinin qanun-qaydalarına yaxşı bələd olmasıdır. O, şeirdə, sözlərin düzümündə və axımında musiqini duyan, melodiyanı eşidə bilən sənətkardır."[1] Bu qənaətə gəlmək olar ki, bəstəkar sözə son dərəcə həssas olduğu, həm klassik poeziyanı mükəmməl bildiyi, həm də dilimizin qanunlarına vaqif olduğu üçün musiqi ilə sözün bu qədər mükəmməl vəhdətinə nail olmuşdur.

Onun fitri musiqi istedadı isə bu poeziyanın fəlsəfi mahiyyətinin ən uğurlu musiqi həllini yaratmağa imkan verdi. Nəticədə Füzuli kantatası, Nəsimi kantatası, Sabir oratoriyası, Nizami sözlərinə romanslar və s kimi ciddi əsərlər yarandı. Bəstəkarın tək "Füzuli" kantatası ümumiyyətlə bəşər musiqinin şedevrləri ilə rəqabətə girə bilər. Vaqifin yaradıcılığına müraciət də bu samballı mərhələnin bir parçası oldu. [9]

C. Cahangirov məhs o bəstəkardır ki, opera, kantata, oratoriya, simfonik poema, konsertlər, xor üçün ən müxtəlif həcmli əsərlər, çoxlu sayda kino və tamaşa musiqisi yazdığı halda, mahnı janrına da möhür vura bildi. Cahangirov öz mahnılarını da ciddi əsər səviyyəsinə ucaltdı. Bəstəkar mahnı janrına olan münasibətini belə izah edirdi: "Mahnıya ciddi münasibət bəsləmək lazımdır. Mahnının ideya, məzmun gücü, müasir səciyyəsi, sifəti olmalıdır". Həqiqətən bu nəğmələrin biri digərindən gözəl və mükəmməldir. Fikir verin, "Buludlar", "Ana", "Alagöz", "Zərif gülüşlüm", "Ay qız", "Ana kür", "Aylı gecələr", "Bana-bana gəl", "Qarabağ". Bu nəğmələrin hər birini mürəkkəb və ciddi əsər adlandırmaq olar.

Çox maraqlıdır ki, Durnalar qoşması Cahangirov yaradıcılığında 2 dəfə keçir. 1-ci dəfə bəstəkar 1952-ci ildə bu mətnə musiqi bəstələyir. Bəstəkarın Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət arxivində saxlanılan arxiv sənədləri içərisində mahnılarının annotasiyası da var. Həmin sənəddəki mahnıların sırasında «Durnalar»ın yarandığı tarix də məhz 1952-ci il qeydi ilə verilir. [13] Həmin nəğmə Cahangirovun Filarmoniyanın mahnı və rəqs ansamblına rəhbərlik etdiyi illərdə yazılmış və kollektivin solistlərindən olan Nərminə Məmmədovanın ifasında 1953-cü il qeydi ilə fonda daxil olunmuşdur. Maraqlıdır ki, bu versiya da bəstəkarın sonrakı mükəmməl versiyası kimi Şüştər ladında yazılmışdır. Lakin bu versiyanın nisbətən sadəliyi, musiqi cümlələrinin daha bəsit, daxili inkişafın zəif, dinamikasız olması  müəllifin bu mövzudakı ilk kövrək addımlarını, hələ formalaşmamış üslubunu xatırladır. Sanki bu versiya sadəcə daha erkən cızma-qara və sınaq versiyadır. Tarix də sübut etdi ki, bəstəkarın özünün də ürəyicə olmamış ki, o, bu mövzuya bir daha qayıtmış və artıq 2-ci dəfə durnaların şahanə obrazını yarada bilmişdir.

C. Cahangirovun Dövlət Ədəbiyyat və İncəsənət arxivində qorunan sənədləri içərisində "Durnalar"ın 1956-cı il qeydi ilə notları var. Bu notlar mahnının 2-ci versiyasının əlyazmaları, ilk

eskizidir. Burada bəstəkarın axtarışları, melodiya üzərinə hecaların düzülüşündəki kövrək cəhdləri aydın görünür. Həmin sənəd sübut edir ki, bu əsər üzərində iş əslində 1956-cı ildə başlamışdır. Görünür ki, ilkin eskiz o zaman tamamlanmamış və yalnız 60-cı illərin II yarısında yekunlaşaraq efir həyatını da o zaman qazanmışdır. Zənn edirik ki, 1967-ci ildə ölkəmizdə M. P. Vaqifin 250 illik yubileyi dövlət səviyyəsində keçirilərkən Cahangirov da bu nümunəni üzə çıxararaq onun efir həyatını təmin etmişdir.

Bu versiyanın peşəkar məziyyətlərinə gəlincə isə, bəstəkar bu dəfə ilk versiyaya qətiyyən bənzəməyən, daha samballı, ruhsal, melodik və harmonik göstəriciləri ilə zəngin və təsirli musiqi yaratmışdır. Milli muğam köklərimizə dərindən bələd olan bəstəkar Durnaları yenə də Şüştər məqamına əsaslandırır. Bəllidir ki, Şifahi ənənəli professional Azərbaycan musiqisində 7 əsas məqmdan biridir Şüştər.[2] Görkəmli bəstəkar Üzeyir Hacıbəyli "Şüştər"i dinləyicidə kədər-qəm hissləri yaradan ən hüzünlü muğam ladı adlandırmışdır. [8] Görünür Vaqif şeirindəki kədər, həsrət və xiffət ruhunu vermək üçün də Cahangirov məhz Şüştər muğamından istifadə etmiş, bu ladın ən zərif intonasiyialarɪ ilə Vaqif poeziyasını, şərq incəliyini, 18-ci əsrin ovqatını ötürə bilmişdir.

Nəhayət tarixçəmizin ən rəngli, maraqlı hissəsinə yaxınlaşdıq. Bizi mahnının zəngin səhnə tarixçəsinə səyahət gözləyir. Bu əsərin ifaçıları hədsiz çox olmuşdur. Amma bu retrospektivdə ilk ifalar öz səviyyəsi ilə heyran edir.

Əslində Cahangirov əsərlərinin əsas ifaçı cərgəsi olub və həmin sıraya Ş.Ələkbərova başçılıq edib. Təsadüfi deyildi ki, 60-cı illər onların bərabər çalışdığı ən məhsuldar dövr idi. «Ay qız», «Zərif gülüşlüm», «Qarabağ», xüsusilə Azərbaycan ifaçılıq sənətinin şah əsərlərindən hesab olunan «Füzuli» kantatasına həyat verən məhz Ş.Ələkbərova olmuşdur. Qızıl fonda daxil olan ilk yazı 1968-ci il qeydi ilə Əhsən Dadaşovun XÇA ansamblının müşayətində səslənir. O andan, yəni 1968-ci ildən etibarən də teleradio efirlərində Cahangirovun bu gözəl əsərinin uzun və zəngin səyahəti başlayır.[14]

1970-ci ildə mahnının növbəti versiyası Elmira Rəhimovanın səsi və Ə. Dadaşovun kollektivi ilə lentə yazılır. [15]

O dövr üçün mahnının ən qeyri-adi şərhi Gülarə Əliyevanın Dan ulduzu ansamblından gəlir. Y.Rzazadənin ifasında mahnının çox ahəngdar, lirik, son dərəcə uğurlu obrazı yaranır. Bu, mahnının tarixində həqiqətən unikal yazılardandır. Xüsusilə də qaboy alətinin solo partiyası ilə durna qatarının səs imitasiyası son dərəcə uğurlu alınıb. [16]

1972-ci ildə musiqi karyerasının lap əvvəlini yaşayan Akif İslamzadə mahnını Ə. Dadaşovun kollektivi ilə lentə yazdıran növbəti ifaçı olur. [17]

1973-cü ildə Cahangirovun əsas ifaçılarından daha biri, bəstəkarın "Bakı", "Ay qız", "Buludlar", "Alagöz", "Yenilməz batalyon" filmindəki məşhur mahnının istedadlı şərhçisi İslam Rzayev "Durnalar"ı oxuyur. Bu versiya ilə də sanki Cahangirovun sevimli ifaçılarının cərgəsi tam olur. [18]

**Nəticə**

Beləcə təqdim olunan xronika ilə mahnının retrospektivinə qısa səyahət etdik və Cahangirovun qüdrətli nəğməsinin 60-70-ci illərdəki ən parlaq versiyalarına nəzər saldıq. Ən əsası, cövhərini 18-ci əsrdə yaranmış 1 şeirdən alaraq 2 yüzillik sonra, XX əsrin ortalarında özünün bənzərsiz musiqi həllinə qovuşan və milli mədəniyyətimizdə şahanə yerini qazanan 1 əsərlə möcüzəli bir yola çıxdıq. "Durnalar" həqiqətən ciddi sənət əsəri kimi Azərbaycan mahnı janrının zirvəsinə qalxa bildi. Muğam təfəkkürünü xatırladan daxili inkişafı, fakturası, dinamikası, cümlələrinin bitginliyi, musiqi dilinin axıcılığı, melodik və harmonik zənginliyi, sözlə musiqinin dərin məzmuni vəhdəti, yüksək peşəkarlığı, bu nəğməni bütün digər miniatür nümunələrdən fərqləndirir, ona ciddi və akademik əsər statusu geyindirir, bədii sənətin zirvəsinə ucaldır. Əslində bu əsər hələ ötən əsrin ortalarında mahnı janrına klassik ədəbiyyatımızın gəlişi, XX əsrin insanlarına populyar musiqi vasitəsilə qayıdışı idi. Bakıda bizə yabancı olan həm qərb, həm şərq musiqi dalğalarının gəldiyi birzamanda, cazın, rokun, fars-iran avazlarının, yaxud sovet ab-havasından doğan populist mövzuların içində, əsl Azərbaycan mahnı formasını və məzmununu anladırdı bu nəğmə. Cahangirov təmiz azərbaycan musiqisi ilə Füzuli, Nəsimi, Seyyid Əzim, Sabir və Vaqif də daxil olmaqla, klassikləri bizim müasirlərimizə çevirdi. Azərbaycan dinləyicisinin tək musiqi zövqünü deyil, həm də intellektini, poetik düşüncəsini, bədii təfəkkürünü də tərbiyə edə bildi. Məhz buna görə Cahangirova həmişə minnətdar olacağıq, bu qüdrətli sənətkarın ilahi musiqisinə daim qayıdacağıq.

## ƏDƏBİYYAT

1. Cahangir Cahangirov - biblioqrafiya, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Bakı 2011
2. Əfraziyab Bədəlbəyli "İzahlı monoqrafik musiqi lüğəti" Şərq-qərb, Bakı 20178. Zöhrabov R.
3. Firudin bəy Köçərli "Azərbaycan ədəbiyyatı" I cild, Elm nəşriyyatı, Bakı 1978
4. F. Köçərli "Ədəbiyyatımıza dair" Rəhbər qəzeti 1906
5. H. Araslı "Azərbaycan ədəbiyyatı tarixi" Bakı, 1960
6. Nizami Cəfərov "Molla Pənah Vaqif" Bakı, 2017
7. Pakizə Zakirova "Molla Pənah Vaqifin əsərlərinin tədqiqi və nəşri tarixinə dair" Ədalət qəzeti, Bakı 2017
8. Üzeyir Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" Bakı 2010
9. Zöhrabov R. Bəstəkarlarımız haqqında söz - Bakı, 1995
10. А. Дадашзаде "Певец жизни" (Раздумье о Вагифе) Баку, Изд-во АН.Азербайджанской ССР 1968
11. А.С. Сумбатзаде «Азербайджанская историография XIX-XX веков» Баку, Элм 1987
12. Вагиф Молла Панах-Большая советская энсиклопедия. 3-е издание 1969-78

İnternet resursları:

13. Nərminə Məmmədova - Durnalar https://www.youtube.com/watch?V=gkk8wqdbq54
14. Şövkət Ələkbərova - Durnalar https://www.youtube.com/watch?v=MfRSeKEnvJM
15. Elmira Rəhimova - Durnalar https://www.youtube.com/watch?v=Rz-fgmzEhHs
16. Yalçın Rzazadə - Durnalar https://www.youtube.com/watch?v=10DJtC5acCQ
17. Akif İslamzadə - Durnalar https://www.youtube.com/watch?v=qnVh82Aj_hI
18. İslam Rzayev - Durnalar https://www.youtube.com/watch?v=TYiCxBJXIZo
19. Bir mahnının tarixçəsi – Durnalar https://www.youtube.com/watch?v=tiC_-mneho8

***Üzeyir Hacıbəyli adına**
**Bakı Musiqi Akademiyasının**
**Dissertantı**
**"Tərəqqi" medalı mükafatçısı**
**İctimai Televiziya və Radio**
**Yayımları şirkətinin əməkdaşı**
**E-mail:Konularif@gmail.com**
**Orcid: 0000-0003-0369-6886***

**Konul Shukurova**

## CLASSICAL POETRY IN THE HERITAGE OF SONGS OF THE XX CENTURY, THE "CRANES" BY VAGIF AND DZHAKHANGIROV FROM THE XVIII CENTURY TO NOVADAYS

This study includes information and facts about the history of the creation and performance of the song "Durnalar", which was considered one of the most valuable examples of our national song heritage. Using the example of a song, the connection through the language of art between artists who lived in different centuries is conveyed. Thanks to this unique work of art, created by M. P. Vagif, the founder of the direction of realism that originated in the 18th century and J. Jahangirov, a prominent representative of the professional composer school, the artistic bridge between different eras comes to life in front our eyes. Their joint work analyzes the philosophy and harmony born from the unity of words and music. For the first time, the form, structure, content, musical language and place of this song in our song genre of the 20th century are analyzed. A retrospective of the main performances included in the song's chronicle is also consistently presented.

Thanks to this work, the importance of aesthetic, scientific and social aspects of musical and educational activities is once again revealed. By exploring and popularizing the national song genre, we contribute to the spiritual enrichment and development of the future generation.

**Keywords:** *Molla Panah Vagif, J.Jahangirov, "Durnalar", Ashuk poetry, song genre.*

**Кенуль Шукюрова**

**КЛАССИЧЕСКАЯ ПОЭЗИЯ В НАСЛЕДИИ ПЕСНИ XX ВЕКА, «ЖУРАВЛИ» ВАГИФА И ДЖАХАНГИРОВА ОТ XVIII ВЕКА ДО НАШИХ ДНЕЙ**

В данное исследование включены сведения и факты об истории создания и исполнения песни «Дурналар», считавшейся одной из ценнейших образцов нашего национального песенного достояния. На примере песни передается связь языком исскуства между художниками, жившими в разные века. Благодаря этому уникальному произведении искусства, созданное М. П. Вагифом, основоположником направлении реализма, зародившегося в XVIII веке и считающегося одним из классиков нашей поэзии и Дж. Джахангирова, яркого представителя профессиональной композиторской школы, на глазах оживает художественный мост между разными эпохами. В их совместном творчестве анализируются философия, гармония, рожденные из единства слова и музыки. Впервые анализируются форма, содержание, музыкальный язык и место этой песни в песенном жанре XX века. Также последовательно представлена ретроспектива основных исполнений, вошедших в летопись песни.

Благодаря данной работе еще раз раскрывается важность эстетических, научно-общественных аспектов музыкально-просветительской деятельности. Исследуя и популяризируя национальный песенный жанр, мы вносим свой вклад в духовное обогощение и развитие будущего поколения.

**Ключевые слова:** *Молла Панах Вагиф, Дж. Джахангиров, «Дурналар», ашукская поэзия, песенный жанр.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 02.04.2024**
**Son daxilolma tarixi:12.05.2024**